# Azərbaycan və Qazaxıstanın maraqları Orta dəhlizdə də üst-üstə düşür

## Bu maraq dəhliz üzərindən daşınan yüklərin həcmini artırmaqdır

**Dünya ticarətində nəqliyyat dəhlizlərinin əhəmiyyəti artıb və bu, təbiidir - həm istehsalçı, həm də sifarişçi yüklərin mənzil başına tez, təhlükəsiz və ucuz çatmasını istəyir.**

Orta dəhliz bu üç tələbin hamısına cavab verir. O üzdən son dövrlər tərəflər Orta dəhlizi seçirlər. Statistik rəqəmlər göstərir ki, ildən-ilə bu marşrutla daşınan yüklərin həcmi sürətlə artır. Belə olan halda marşrutun modernləşdirilməsi və gömrük prosedurlarının sadələşdirilməsi önə çıxır. Azərbaycanla Qazaxıstan bu sahədə yaxından əməkdaşlıq edir. Bununla yanaşı, hər iki ölkə marşrutun səmərəliliyini artırmaq üçün digər tərəflərlə əlaqələri genişləndirir, müvafiq qərarların qəbuluna çalışırlar.

Qazaxıstan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üzrə yarımkomitənin 15-ci iclasında Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM, Orta dəhliz) gələcək inkişafı və marşrut üzrə yükdaşımaların həcminin artırılması ilə bağlı razılıq əldə olunub. Çin Avropa ilə ticarəti genişləndirmək istəyir. Bunun üçün Qazaxıstan üzərindən TBNM marşrutu üzrə avtomobil nəqliyyatı ilə yükdaşımaları artırmaqda maraqlıdır. Ötən il bu iki ölkə yük daşımaları prosedurları üzrə icazə blanklarının mübadiləsini elektron formatda həyata keçirib. Bu isə reyslərin iki dəfə artırılmasına imkan yaradıb.

Çin eyni zamanda Orta dəhlizin açar ölkəsi olan Azərbaycanla əməkdaşlığı genişləndirir. Bu məqsədlə Bakı Limanı və Çinin "COSCO" gəmiçilik şirkəti Orta dəhliz boyu konteyner daşımalarının inkişaf yollarını müzakirə ediblər. Çin tərəfi Bakı Limanının İpək yolunun inkişafındakı strateji əhəmiyyəti və Orta dəhliz vasitəsilə konteyner daşımalarının artırılması istiqamətində görülən işlər barədə məlumatlandırılıb.

Statistik rəqəmlər də Orta dəhliz vasitəsilə konteyner daşımalarının sürətlə artmasını göstərir. Keçən ilin mart ayında Çinin Sian şəhərindən yola düşən konteyner blok-qatarı 11 gün ərzində Bakıya çatıb. Ötən il Çindən Azərbaycana 358 konteyner blok-qatarı göndərilib. İl ərzində bu marşrutla daşınan konteynerlərin həcmi 27 min TEU-dan çox olub ki, bu da 2023-cü illə müqayisədə 25 dəfə artım deməkdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Orta dəhlizlə yüklərin daşınması gözlənildiyindən çox artır. Çünki indiki geoiqtisadi vəziyyətdə Orta dəhliz təkcə Mərkəzi Asiya və Cənubi Qafqaz deyil, dünya qlobal ticarəti və nəqliyyat sistemləri üçün də strateji əhəmiyyət daşıyır. Azərbaycan və Qazaxıstanın gömrük sahəsində ikitərəfli əməkdaşlığın cari vəziyyəti və perspektivlərini müzakirə etmələri də bu əhəmiyyətdən irəli gəlir. Müzakirə zamanı hər iki tərəf gömrük prosedurlarının sadələşdirilməsi, avtomatlaşdırılması və rəqəmsallaşdırılmasının Orta dəhliz çərçivəsində yükdaşımaların səmərəliliyini artıracağını vurğulayıb. Bunun özü tərəflərin marşrutun inkişafına xüsusi önəm verdiklərini bir daha təsdiqləyir.

Hazırda Qazaxıstan və Azərbaycan məhsullarının, eləcə də üçüncü ölkələrdən gətirilən yüklərin tranzitində artım tempi sürətlə yüksəlir. Bu müsbət tendensiyanın qorunub saxlanması üçünsə yükötürmə prosedurlarının sadələşdirilməsi vacibdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 4 mart (№ 48).- S.7.